**Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Müəssisə və təşkilatların sosial sığortaya ayırmalarına və onların məqsədyönlü xərclənməsinə nəzarəti gücləndirmək, əhalinin sosial müdafiəsi sahəsində olan paralelçiliyi ləğv etmək məqsədi ilə və "Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Pensiya Fondu və Azərbaycan Respublikasının Sosial Sığorta Fondu bazasında Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu yaradılsın.

Müəyyən edilsin ki, respublikanın müəssisə və təşkilatlarından sosial sığortaya ayırmalar tam həcmdə Dövlət Sosial Müdafiə Fonduna daxil olur.

2. Əvəz Əkbər oğlu **Ələkbərov** Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri təyin edilsin.

3. Ə. Ə. Ələkbərova tapşırılsın ki, iki həftə ərzində Fond haqqında Əsasnaməni hazırlayıb təsdiq edilmək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bu Fərmandan irəli gələn məsələləri həll etsin.

5. Bu Fərman imzalandığı andan qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**Əbülfəz ELÇİBƏY.**

Bakı şəhəri, 30 sentyabr 1992-ci il.
№ 233.